# Yeni iliniz mübarək!


# XIZI

Qəzet 1990-cı ildən çıxır.
№ 8 (190) 314
dekabr 2023-cü il –
1 yanvar 2024-cü il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti




*"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".*

**Heydər Əliyev**

# Prezident İlham Əliyevin 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciəti



- Əziz həmvətənlər.

2023-cü il arxada qalır. 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq o hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır. 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir, işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması təmin edilmişdir, düşmən ordusu məhv edilmiş, düşmənin hərbi texnikası məhv edilmiş və ya qənimət kimi götürülmüşdür. Bu tarixi hadisə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm.

2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi.

Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq. Əfsuslar olsun ki, bu, belə olmadı. Üç il ərzində Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri nəinki yerinə yetirmədi, hətta əksinə, bizə qarşı yeni hərbi təxribatlar hazırladı və onları həyata keçirdi. Qanunsuz olaraq torpağımızda məskunlaşmış 15 minlik Ermənistan ordusu Qarabağdan çıxarılmadı. Əksinə, yeni silahlar, sursatlar, hərbi texnika, minalar Qarabağa gətirildi və bizə qarşı mina terroru davam etdirildi.

Təbii ki, biz bu vəziyyətlə barışa bilməzdik. Dəfələrlə Ermənistan rəhbərliyinə və onun arxasında dayanmış Qərb ölkələrinə xəbərdarlıq etmişdik ki, bu vəziyyət davam edə bilməz. Ya separatçı rejim özünü buraxmalıdır, Ermənistan ordusu bizim ərazimizdən çıxarılmalıdır, ya da ki, biz güc tətbiq edərək dövlət suverenliyimizi özümüz bərpa edəcəyik. Əfsuslar olsun ki, bizim sözümüzə diqqət yetirilmədi. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz.

Azərbaycan Ordusu bir daha peşəkarlıq, qəhrəmanlıq, əsgər və zabitlərimiz fədakarlıq göstərmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Onu bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmadı. Həm Birinci, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər, zabitlərimizin, mülki şəxslərin, Xocalı qurbanlarının qisası döyüş meydanında alınmışdır.

2023-cü ilin aprel ayında isə biz ərazi bütövlüyümüzü tam bərpa etmişdik. Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsi qurulmuş və o gündən bəri Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmişdir. Azərbaycan xalqı yaxşı xatırlayır ki, dünyada, xüsusilə Qərb ölkələrində Ermənistanın arxasında dayanan, onlara daim dəstək göstərən ölkələrdə nə qədər hay-küy qaldırılmışdı, bizə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Heç bir ittiham, heç bir təzyiq bizim iradəmizə təsir edə bilmədi. Mən o vaxt da demişdim ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, öz sərhədimizi özümüz nəzarətə götürmüşük və heç kimə imkan verməriк ki, bizim torpağımızda at oynatsın. Bu, bizim torpağımızdır, bu torpağın sahibi bizik, nə lazım biliriksə, onu da edəcəyik, beynəlxalq hüquq çərçivəsində, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində. O da dərs olmadı işğalçılara, o da dərs olmadı onların arxasında dayanan anti-Azərbaycan qüvvələrə. Ona görə sentyabr ayında keçirilmiş antiterror əməliyyatı labüd idi və biz bunu keçirdik, bununla da fəxr edirik, qürur hissi keçiririk. Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı haqlı olaraq qürur hissi keçirir.

Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq bu il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Bu ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışdılar. Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Bu il Laçın şəhərinə Müstəqillik Gününü qeyd edərkən köçkünlər qayıtmışdır - 28 May tarixində Laçında böyük bayram günü idi. Ondan əvvəl, bildiyiniz kimi, Ağalı kəndində köçkünlər məskunlaşmış və beləliklə, beş yaşayış məntəqəsində indi həyat bərpa edilib.

Onu da bildirməliyəm ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar.

Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz - bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə-yeksan etmiş, bizə qarşı soyqırımı, eyni zamanda, urbisid, ekosid törətmişlər. Bizim çaylarımız zəhərləndi, bizim meşələrimiz qırıldı. Bütün bunları edən Ermənistan dövləti idi. Əfsuslar olsun ki, bu cinayətlərə görə onlar bu günə qədər Qərbdə qınaq obyektinə çevrilmədi.

Bu gün Qərbdə ikili standartlar hökm sürür. Azərbaycan xalqı bunu yaxşı bilir və eyni zamanda, yaxşı bilir ki, biz bütün təzyiqlərə, bütün hədə-qorxulara, əsassız ittihamlara baxmayaraq bildiyimizi edəcəyik. Necə ki, etmişik, bundan sonra da edəcəyik. Ermənistan rəhbərliyi də bu tarixi dərslərdən nəticə çıxarmalıdır və özünü elə aparmalıdır ki, bizim qəzəbimizə tuş gəlməsin.

Biz bu il iqtisadi sahədə öz siyasətimizi uğurla aparmışıq. Müstəqil iqtisadiyyat bizə imkan verir ki, heç kimdən asılı olmayaq, heç bir beynəlxalq maliyyə institutundan asılı olmayaq və asılı deyilik.

Biz Ordumuzu böyük dərəcədə gücləndirmişik, həm peşəkarlıq artdı, yeni silahlı birləşmələr yaradıldı və bu silahlı birləşmələr digər silahlı birləşmələrlə birlikdə antiterror əməliyyatında çox böyük peşəkarlıq göstərmişlər. Yeni silahlar, hərbi texnika alındı, gətirildi, bir çox yeni kontraktlar imzalandı. Onu da bildirməliyəm ki, gələn il hərbi təyinatlı yerli istehsal böyük dərəcədə artacaq. Gələn il həm dövlət, həm özəl sektor tərəfindən hərbi təyinatlı məhsulların istehsalına ən azı bir milyard manat sərmayə qoyulacaq. Beləliklə, biz nəinki özümüzü əsas vasitələrlə təmin edəcəyik, Azərbaycan dünya miqyasında çox ciddi ölkəyə çevriləcək, bizim hərbi təyinatlı məhsulların həcmi və sayı böyük dərəcədə artacaq.

Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Dekabr ayında dünyanın ən böyük beynəlxalq konfransının Azərbaycanda keçirilməsi haqqında bütün dünya ölkələri yekdil qərar qəbul etmişlər - COP29 gələn il Azərbaycanda keçiriləcək. Bu, bizə dünya ictimaiyyəti tərəfindən göstərilən böyük hörmət və rəğbətdir, eyni zamanda, bizim yaşıl enerjiyə keçidimizə olan böyük qiymətdir. Yaşıl enerji keçidi bizim prioritet məsələmizdir və bu il Azərbaycanda bölgənin ən böyük bərpaolunan elektrik enerjisi stansiyası istifadəyə verilmişdir - 230 meqavat gücündə günəş elektrik stansiyası artıq bizim enerji sistemimizə tam inteqrasiya edilmişdir. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında yaxın bir neçə il ərzində Azərbaycanda 10 min meqavat bərpaolunan enerji növləri, enerji mənbələri yaradılacaq və bu sahədə də Azərbaycan dünyada liderlər sırasında olacaqdır. Əlbəttə ki, COP29 - iqlim dəyişikliyinə həsr edilmiş bu beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bir daha bu sahədə bizim uğurlarımızı əyani şəkildə göstərir.

Bu il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Ulu Öndərin 100 illiyi ölkə üzrə qeyd edildi. Mən mənim üçün bu əziz günü - atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. Mən hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə qaldırdığım Dövlət Bayrağımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir.

Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Bu gün dünya azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq üç ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayırlar.

Tarixi Zəfərimiz - İkinci Qarabağ müharibəsindəki Zəfər, antiterror əməliyyatı, işğalçılardan azad olunmağımız, separatçı rejimin çökməsi bütün azərbaycanlıları haqlı olaraq bir araya, bir yumruq halına gətirir. "Dəmir yumruq" bizim Zəfər salnaməmizin rəmzi idi. Bu gün, eyni zamanda, "Dəmir yumruq" birliyimizin rəmzidir və Azərbaycan xalqını, bütün dünya azərbaycanlılarını əmin etmək istəyirəm ki, "Dəmir yumruq" hər zaman yerində olacaq.

Əziz bacılar və qardaşlar, sizə cansağlığı, uğurlar arzulayıram. Arzu edirəm ki, 2024-cü il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olsun. Bayramınız mübarək olsun!

## 12 Dekabr Ümummilli Lider Heydər Əliyevin anım günüdür

# Ölməzlik zirvəsinə yüksəlmiş dahi şəxsiyyət

"Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir."

***İLHAM ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



*"Xalqımın mənə inam, etimad göstərdiyi qədər mən onun yanında olacağam".*

***HEYDƏR ƏLİYEV,***
***Ümummilli Lider***

**Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində özünün müstəsna əhəmiyyəti, xalqımızın nəinki bugünkü, eləcə də gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Heydər Əliyev epoxası bənzərsizdir.**

Taleyüklü hadisələrlə yadda qalan, Azərbaycanın milli intibahı kimi səciyyələnən, müstəqillik tariximizə qızıl hərflərlə əbədi həkk olunan bu epoxa Ulu Öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Bu dövr Azərbaycanın müasir tarixinin bütöv bir salnaməsini təşkil edir. Bu şanlı salnamənin hər bir səhifəsi, hər bir sətri Ulu Öndərimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılıb.

Xalqımızın və böyük türk dünyasının müdrik lideri, fəaliyyəti öz əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxan Heydər Əliyev məhz adı və əməlləri durduqca daim xatırlanacaq dahi və güclü şəxsiyyətdir. Heydər Əliyev zamanın fövqündə dayanan elə bir şəxsiyyətdir ki, o yalnız öz dövrü üçün yaşamayıb, yalnız öz dövrünün qayğıları ilə məşğul olmayıb. Ulu Öndərimizin ən böyük xidmətlərindən biri də odur ki, Azərbaycanın tarixi keçmişini bərpa edib, milli mənəvi irsini, dəyərlərini özünə qaytarıb, adət-ənənələrini yaşadıb.

Azərbaycan xalqını nadir irsin övladları adlandıran Heydər Əliyev dönə-dönə bəyan edirdi ki, biz bu irsə layiq olmalı, qədim tariximizi, onun bütün mərhələsini yaxşı bilməli və təbliğ etməliyik. Çünki tarixini unudan millətin yaşamağa haqqı yoxdur. Ümummilli Liderimiz tarixi keçmişimizi yaşatmaqla, milli-mənəvi irsimizin cəmiyyətdə bərqərar olmasına, inkişafına, dünyada təbliğinə nail olmaqla müasir Azərbaycanın təməlini qoyub, sabit, demokratik, dünyada yetərincə söz sahibi olan müstəqil Azərbaycan adlı şah əsərini yaradıb.

Dünyada elə bir görkəmli siyasətçi və dövlət xadimi tapmaq çətindir ki, Ulu Öndər Heydər Əliyev haqqında müsbət fikrini söyləməsin. Dünya səviyyəli bu dahi siyasətçinin göstərdiyi misilsiz xidmətlər təkcə ölkəmizdə və regionda deyil, bəşəri səviyyədə çox yüksək qiymətləndirilir.

Heydər Əliyev epoxasına nəzər salarkən, onun ayrı-ayrı mərhələlərini və nəticələrini araşdırarkən, müasir tariximizin 34 illik bir dövrü ərzində bu müdrik şəxsiyyətin Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatında oynadığı mühüm rolu, ölkəmizin milli mənafeləri baxımından bənzərsiz fəaliyyətini təhlil edərkən belə qənaətə gəlmək olar ki, xalqımızın bu şanlı tarixini məhz Heydər Əliyev bütün çətinliklərə sinə gərərək özü yaradıb.

Heydər Əliyevin müstəsna şəxsi keyfiyyətləri onun Azərbaycana rəhbərlik etdiyi dövrün bütün mərhələlərində özünü bariz şəkildə büruzə verib. Ümummilli Liderimizin rəhbərliyi altında respublikamızın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və tükənməz enerji istər ötən əsrin 70-80-ci illəri, istərsə də ki, 1993-cü ildən sonrakı dövrü xarakterizə edən başlıca amillərdir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra Azərbaycanın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru köklü dəyişikliklərə təkan vermiş, iqtisadi tərəqqi, mədəniyyətin yüksəlişi və milli mənəvi dəyərlərin dirçəlişi istiqamətində mühüm addımlar atılmışdır.

Həmin dövrü xarakterizə edən amillərdən biri də odur ki, Heydər Əliyev özünün dövlət idarəçiliyi strateji proqramında mədəni və mənəvi intibahı iqtisadi uğurlarla paralel olaraq nəzərdə tutmuş və yüksək zirvələrə ucaltmışdır. O illər bir tərəfdən nəhəng abadlıq-quruculuq iqtisadiyyatımızın sürətli inkişafı dövrü kimi, digər tərəfdən mədəniyyətimizin, elmimizin, təhsilimizin intibah dövrü kimi tarixə düşüb.

Ulu Öndərimiz həmin dövrdə uzaqgörənliklə gənc milli kadrların yetişdirilməsinə, onların savadlı mütəxəssis kimi formalaşmasına xüsusi diqqət və qayğı ilə yanaşırdı. Təhsili millətin gələcəyi adlandıran Heydər Əliyev, ona fəaliyyətinin bütün dövrlərində böyük önəm verib. Təhsilə qayğının artırılmasına dövlət siyasətinin üstün prinsipi, prioritet məsələsi kimi yanaşıb. Ötən əsrin 70-ci illərində əsası qoyulan ən dəyərli ənənələr sırasında azərbaycanlı gənclərin SSRİ-nin ən qabaqcıl ali məktəblərinə təhsil almağa göndərilməsi praktikası xüsusi yer tutur. Elm, təhsil və mədəniyyətimizin tərəqqisi ötən əsrin yetmişinci illərindən başlanan milli yüksəliş tariximizin əsl reallığıdır. Ulu Öndər Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsi Azərbaycanı dünyaya tanıtmaq üçün əlavə imkanlar idi. O, öz vətənini, xalqını dərindən sevən bir insan kimi yaranmış imkanlardan maksimum istifadə etməyə çalışırdı. Hər bir hadisənin əsl mahiyyəti ona dövrün reallıqları prizmasından yanaşdıqda üzə çıxır.

İrimiqyaslı qlobal siyasi dəyişikliklər müşayiət olunan tarixi dönəmlərdə xalqın mənafeyinə uyğun siyasi iradə nümayiş etdirmək iqtidarında olan şəxsiyyətlərə daha böyük ehtiyaclar duyulur. Məhz belə bir tarixi dönəmdə, Azərbaycan yenicə qazandığı müstəqilliyini itirmək təhlükəsi ilə üzləşəndə Heydər Əliyev daha bir tarixi missiyanı öz üzərinə götürdü - xilaskar rolunu oynadı. Xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev nəinki müstəqilliyimizi qoruyub saxladı, eləcə də onu möhkəmləndirdi. Ulu Öndərin tarixi qayıdışı özünün əzəmətli ifadəsini öncə ölkəmizin və xalqımızın nicata qovuşmasında, geniş mənada isə müstəqil Azərbaycan dövlətçiliyinin yaradılmasında, onun möhkəmləndirilməsində, zamanın yeni çağırışlarının müvəffəqiyyətlə həll edilməsində tapır.

Heydər Əliyev irsi elə bir böyük xəzinədir ki, onun ən layiqli qiymətini hər vaxt zaman özü vermiş və verəcəkdir. Bu irsi öyrənmək təkcə bu gün üçün yox, həm də gələcək üçün lazımdır. Müasir Azərbaycan dövlətçiliyinin əsasını qoymuş və möhkəm özülünü yaratmış bu şəxsiyyətin ideya dünyası onun davamçılarının yoluna gələcəkdə də işıq salacaqdır.

Sevindirici haldır ki, bu gün Heydər Əliyevin qurucusu olduğu müstəqil dövlətimizin sükanı etibarlı əllərdədir. Ümummilli Liderimizin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir, onun əməllərini yaşadır və inkişaf etdirir. Prezident seçilərkən xalqa verdiyi bütün vədlərə əməl edərək, Azərbaycanı siyasi, iqtisadi və mədəni cəhətdən qüdrətli ölkəyə çevirdi. Ölkədə sosial problemlər öz həllini tapır, insanlarını həyat şəraiti durmadan daha da yaxşılaşır. Azərbaycan dünyadakı siyasi və iqtisadi proseslərə təsir etmək gücünü nümayiş etdirir. Xüsusilə, ordu quruculuğunda aparılan islahatlar, görülən genişmiqyaslı işlər Azərbaycan Ordusunu qalib orduya çevirdi. Azərbaycan əsgəri XXI əsrin müharibəsi sayılan II Qarabağ müharibəsini Zəfərlə başa vurdu. Xalqın 30 illik həsrətinə son qoyuldu. Şanlı Ordumuz Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə erməni işğalı altında olan torpaqlarımızı azad etdi.

Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən yeni keyfiyyətdə layiqincə davam etdirilməsi həyatımızın bütün sahə və istiqamətlərini əhatə edən dövlət proqramlarının icrası ilə müstəqil Azərbaycanın hərtərəfli və dinamik inkişafının dönməz xarakter daşıdığını təsdiqləyir.

Heydər Əliyev cismani olaraq öz xalqını tərk etsə də onun ölməz xatirəsi daim qəlblərdə yaşayacaq, ideyaları gələcəyə nur saçacaqdır.

***"XIZI", R.M.***

# Xızı rayonunda Ümummilli Lider Heydər Əliyevin xatirəsi anıldı







**12 dekabr tarixi müasir Azərbaycan dövlətinin qurucusu Ümummilli lider Heydər Əliyevin anım günüdür . Onun cismani yoxluğundan iyirmi il ötməsinə baxmayaraq, qədirbilən Azərbaycan xalqı öz xilaskarını heç zaman yaddan çıxarmır, dahi şəxsiyyəti həmişə böyük ehtiramla yad edir.**

Ümummilli Lider Heydər Əliyevin əziz və işıqlı xatirəsi Xızı rayonunda da dərin ehtiramla anılır. Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar dekabrın 12-də Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov başda olmaqla Xızı RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, eləcə də idarə, təşkilat, müəssisələrin rəhbərləri və əməkdaşları, ziyalılar, gənclər, şəhid ailələri, qazilər Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək önünə tər gül dəstələri düzdülər. Böyük azərbaycanlının ölməz xatirəsi dərin ehtiramla yad edildi.

*"XIZI", R.M.*
*12 dekabr 2023-cü il*

# Heydər Əliyev və azərbaycançılıq ideologiyası

***"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və bir azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".***

***HEYDƏR ƏLIYEV,***
***Ümummilli Lider***

**Milli dövlətə mənsubluq əsrlər boyu hər bir xalqın nəyə qadir olduğunu, şərəfli mübarizə yolunu, dünya dövlətləri sırasında layiqli yer tutma əzmini nümayiş etdirmişdir. Bu mənada, xalqların qarşıya qoyduğu konkret hədəflərə doğru irəliləməsi prosesində milli dövlətin mövcudluğu vacib şərtlərdən biridir. Yalnız özünü milli etnos kimi dərk edən xalqlar milli dövlət quraraq onun mövcudluğunu qoruyub saxlaya bilmişlər.**

Təcrübə göstərir ki, hər bir xalqın əlverişli tarixi şəraitdə milli-etnik soykökünə qayıdışı, əsrlər boyu əxz etdiyi milli-mənəvi dəyərlər və düşüncə sisteminə söykənərək özünəməxsusluğunu qorumaq fürsəti əldə etməsi tarixi şəxsiyyət fenomeninin fövqəladə missiyası ilə şərtlənir. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyev də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularda qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini XX əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Ümummilli Lider məhz həmin illərdə milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Əgər Ulu Öndər Heydər Əliyevin hələ respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışmaq çətin olardı.

Ötən əsrin sonlarına doğru çoxəsrlik tarixi mücadilənin yekunu kimi dövlətçiliyini bərpa edən, azadlığa qovuşan Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşması da məhz Ulu Öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Bütün ruhu, qanı, canı ilə özünü azərbaycanlı sayan Ümummilli Lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilə çevrilməsi istiqamətində mühüm işlər görərək ümumxalq birliyin dərin politoloji və nəzəri əsaslarını irəli sürdü. Böyük strateq azərbaycançılığın formalaşmış ayrı-ayrı komponentlərini vahid sistem və konsepsiya halına gətirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri əsasına çevirdi. Məhz Heydər Əliyev dühasının səyi ilə azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq praktikada realizə imkanları qazandı.

Ulu Öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi üçün vahid təməldir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və bir azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur.

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə birləşdirmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir.

Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparmışdır. 2001-ci ilin yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli Lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Həmin qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuş, Ümummilli Lider Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzalamışdır. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar vermişdir. Dövlət Komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

Qürur doğuran haldır ki, Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev də diaspor və lobbi quruculuğuna mühüm məsələlərdən biri kimi yanaşır. Dövlət başçısı müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü çıxışlarında dəfələrlə vurğulamışdır.

Müasir dövrdə diaspor quruculuğu konkret zamanla məhdudlaşmayan, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli prosesdir. Reallıq göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi yolunda hələ çox işlər görülməlidir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması deməyə əsas verir ki, Azərbaycan diasporu daha da güclənəcək, doğma Vətənin taleyüklü problemlərinin həllində daha yaxından iştirak edəcəkdir.

***"XIZI", R.M.***

# 7 FEVRAL 2024-CÜ İL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

*Xızı Rayon İcra Hakimiyyəti başçısının 11 dekabr 2023-cü il tarixli 5-50/3-3-38/2023 saylı Sərəncamı ilə təsdiq edilmişdir*

## 7 fevral 2024-cü il tarixdə keçiriləcək növbədənkənar Prezident seçkiləri ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Xızı rayonunda müəyyən edilmiş açıq və qapalı yerlər barədə

## MƏLUMAT

| S/N | Rayon, şəhər | DSK-nın kodu | Açıq yer (ünvanı) | Tutumu | Qapalı yer (ünvanı) | Tutumu |
|---|---|---|---|---|---|---|
| 1 | Xızı şəhəri | 55 saylı Siyəzən-Quba-Xızı | Xızı şəhərinin girişində sağ tərəfdə C.Cabbarlı parkı ilə üzbəüz boş ərazi,<br>Xızı şəhər tam orta məktəbin stadionu | 2000 nəfər<br>120 nəfər | Uşaq Gənclər İdman Şahmat Məktəbi | 70 nəfər |
| 2 | Xızı rayonu Giləzi qəsəbəsi | 55 saylı Siyəzən-Quba-Xızı | Giləzi qəsəbə futbol meydançası | 1000 nəfər | Giləzi qəsəbə Folklor klubu | 120 nəfər |
| 3 | Xızı rayonu Altıağac qəsəbəsi | 55 saylı Siyəzən-Quba-Xızı | Altıağac qəsəbə tam orta məktəbin qarşısındakı meydan | 500 nəfər | Altıağac qəsəbə tam orta məktəbi | 80 nəfər |
| 4 | Xızı rayonu Sitalçay kəndi | 55 saylı Siyəzən-Quba-Xızı | Sitalçay kənd tam orta məktəbin qarşısındakı meydan | 600 nəfər | Sitalçay kənd klubu | 60 nəfər |
| 5 | Xızı rayonu Şorabad qəsəbəsi | 55 saylı Siyəzən-Quba-Xızı | Şorabad qəsəbə futbol meydançası | 600 nəfər | Türkoba kənd ümumi orta məktəbi | 90 nəfər |
| 6 | Xızı rayonu Qarabulaq kəndi | 55 saylı Siyəzən-Quba-Xızı | Qarabulaq kənd ümumi orta məktəbin qarşısındakı meydan | 200 nəfər | Qarabulaq kənd ümumi orta məktəbi | 30 nəfər |
| 7 | Xızı rayonu Yeni Yaşma kəndi | 55 saylı Siyəzən-Quba-Xızı | Yeni Yaşma kənd tam orta məktəbin qarşısındakı meydan | 350 nəfər | Yeni Yaşma kənd tam orta məktəbi | 80 nəfər |
| 8 | Xızı rayonu Tıxlı kəndi | 55 saylı Siyəzən-Quba-Xızı | Tıxlı kənd ümumi orta məktəbin qarşısındakı meydan | 200 nəfər | Tıxlı kənd ümumi orta məktəbi | 60 nəfər |
| 9 | Xızı rayonu Xələnc kəndi | 55 saylı Siyəzən-Quba-Xızı | Xələnc kənd ümumi orta məktəbin qarşısındakı meydan | 200 nəfər | Xələnc kənd ümumi orta məktəbi (köhnə binası) | 50 nəfər |
| 10 | Xızı rayonu Fındığan kəndi | 55 saylı Siyəzən-Quba-Xızı | Fındığan kənd tam orta məktəbin qarşısındakı meydan | 250 nəfər | Fındığan kənd tam orta məktəbi | 60 nəfər |
| 11 | Xızı rayonu Baxşılı kəndi | 55 saylı Siyəzən-Quba-Xızı | Baxşılı kənd ümumi orta məktəbin qarşısındakı meydan | 150 nəfər | Baxşılı kənd ümumi orta məktəbi | 50 nəfər |
| 12 | Xızı rayonu Ağdərə kəndi | 55 saylı Siyəzən-Quba-Xızı | Ağdərə kənd ümumi orta məktəbin qarşısındakı meydan | 100 nəfər | Ağdərə kənd ümumi orta məktəbi | 50 nəfər |

## Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin yanvar ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə MƏLUMAT

| S/N | Rayon, şəhər | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun keçiriləcəyi tarix | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Fındığan kəndi | Fındığan kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 10.01.2024 | $11^{00}$ |
| 2 | | Altıağac qəsəbəsi | Altıağac qəsəbə tam orta məktəbin binası | 12.01.2024 | $11^{00}$ |
| 3 | | Baxşılı kəndi | Baxşılı kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 17.01.2024 | $11^{00}$ |
| 4 | | Qarabulaq kəndi | Qarabulaq kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 19.01.2024 | $11^{00}$ |

# Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov mütəmadi olaraq rayon sakinləri ilə səyyar görüş-qəbullar keçirir


Tıxlı kəndi

**Təsdiq olunmuş qrafikə uyğun olaraq, Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov Xızı RİHBA-nın, hüquq-mühafizə orqanlarının, eləcə də digər qurumların rəhbərləri ilə birlikdə yerlərdə sakinlərlə səyyar görüş-qəbullar keçirir.**

Rayon rəhbərinin yaşayış məntəqələrinə gələrək vətəndaşlarla görüşməsi, onların problemləri ilə yaxından tanış olması, həlli istiqamətində vəzifəli şəxslərə müvafiq göstərişlər verməsi böyük əhəmiyyət kəsb edir.

Dekabr ayının 1-də Tıxlı kəndində, 8-də Sitalçay kəndində, 15-də Şorabad qəsəbəsində, 22-də Xızı şəhərində vətəndaşlarla səyyar görüş keçirən Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov onların narahatçılığına səbəb olan məsələ və problemləri dinlədikdən sonra hər bir təklif və şikayətlə bağlı müvafiq qurumların rəhbərlərinə ciddi tapşırıqlar verib.


Tıxlı kəndi

***"XIZI", R.M.***


Sitalçay kəndi


Şorabad qəsəbəsi


Xızı şəhəri

# Xızıda Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının peşə bayramı ilə əlaqədar tədbir keçirilib





Dekabrın 18-də Xızı RİH-nin konfrans zalında Fövqəladə Hallar Nazirliyinin yaranmasının 18-ci ildönümü və FHN əməkdaşlarının peşə bayramı münasibətilə tədbir keçirilib. Tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, FHN Sumqayıt Regional Mərkəzinin rəisi polkovnik Vaqif Abdullayev, FHN Sumqayıt Regional Mərkəzinin və Xızı Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin əməkdaşları iştirak ediblər.







Tədbirdəki çıxışlarda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli Sərəncamı ilə yaradılmış Fövqəladə Hallar Nazirliyinin ölkəmizdə əhalinin təbii fəlakətlərdən, texnogen xarakterli qəzalardan və yanğından qorunması, belə hadisələrin nəticələrinin aradan qaldırılması məsələlərini həll edən, habelə mülki müdafiə sahəsində dövlət siyasətini həyata keçirən, xilasetmə və bərpa işləri üzrə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, digər müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanı kimi fəaliyyətindən danışılıb.

Daha sonra FHN Sumqayıt Regional Mərkəzinin və Xızı Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin xidmətdə fərqlənən əməkdaşları Fövqəladə Hallar Nazirliyinin yaranmasının 18-ci ildönümü münasibətilə Xızı Rayon İcra Hakimiyyətinin "Fəxri Fərman"ı ilə təltif olunublar. Fəxri fərmanları Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov təqdim edib.

***"XIZI", R.M.***
***18 dekabr 2023-cü il***



# Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və sosial sahədə ildən-ilə geniş miqyas alan islahatlar, rifah halının yaxşılaşdırılması üçün atılan mühüm addımlar, əldə olunan böyük sosial uğurlar da bunu bir daha təsdiq edir.**

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqları əsasında sosial islahatlar proqramı davam etdirilib, sosial müdafiə və aktiv məşğulluq proqramlarının icrası və daha da genişləndirilməsi təmin edilib. Həssas qrupların sosial təminatı və sosial ödənişlərin artırılması, sosial sahədə xidmətlərin vahid mərkəzdən şəffaf, operativ və əlçatan şəkildə təşkili və digər müvafiq fəaliyyət sahələrində ardıcıl və məqsədəuyğun işlər görülüb. Şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir.

Prezident İlham Əliyevin mütəmadi olaraq Azərbaycanda idarəetmə mexanizminin, ictimai həmrəyliyin güclənməsi, insana, vətəndaşa və xalqa xidmətin yeni çağırışlar - müasir trendlər əsasında təkmilləşməsi, cəmiyyətin intibahı üçün çox mühüm təşəbbüslər irəli sürür, yeni standartlar müəyyənləşdirir. Məram isə aydındır: insanların rahatlığının təmin olunması. Bu isə vətəndaş məmnunluğunun yüksəldilməsi deməkdir.

Azərbaycan Prezidentinin güclü dövlət konsepsiyasının əsas prinsiplərindən biri siyasi təkamüldür. Siyasi təkamülə nail olmaq üçün isə yenilənən islahat kursu ilə yeniləşmək, ictimai münasibətlərdə keyfiyyət dəyişikliklərinə nail olmaq, idarəetmə standartlarını yüksəltmək və digər innovativ metodlardan istifadə etmək lazımdır.

İslahat-reforma təkcə formanı deyil, həm də mahiyyəti dəyişməklə, keyfiyyətcə yeni dəyişikliklərə nail olmaqla təkamülü, tərəqqini təmin etmək vasitəsidir. Prezident İlham Əliyevin islahatlar kursu da bu reallığı ifadə edir. İslahatların önəmli bir hissəsi ictimai xidmətlər sektorunu, şəffaflığın artırılmasını, İKT texnologiyalarının tətbiqi sahələrinin genişləndirilməsini, vətəndaş-məmur təmaslarının minimuma endirilməsini və bu kimi digər mühüm istiqamətləri əhatə edir. Paralel olaraq müxtəlif mərkəzlərin istifadəyə verilməsi ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradır. Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılması da bu baxımdan xüsusi qeyd edilməlidir. Vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət qulluqçusu - vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılan Mərkəzdə bu işin təşkili üçün hər cür şərait var.

”ASAN xidmət” mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi də vətəndaş məmnunluğunun yüksəldilməsi üçün önəmli və faydalıdır. Bu təsisat dövlət orqanları tərəfindən əhaliyə bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli, rahat həyata keçirilməsi məqsədi ilə yaradılıb. Amma bu qurumun missiyası funksiyasından daha genişdir. Çünki ”ASAN xidmət” təkcə vətəndaşa hüquqi prosedurlar vasitəsilə xidmət göstərilməsi funksiyası ilə çıxış etmir. Təsisatın fəaliyyətinin sosial-mənəvi məzmunu, mahiyyəti ictimai münasibətlərdə tamamilə yeni fəlsəfənin tətbiq edilməsidir. İctimai xidmətlər sahəsində inqilabi dəyişikliklər baş verib. Mərkəzlər yaradılanda əsas niyyət insanlar üçün asan, rahat və şəffaf xidmət təşkil etmək olub. Görünən odur ki, sosial inqilab və ictimai intibah xarakteri daşıyan bu təşəbbüs real nəticəsini verib və hədəfə çatmaq mümkün olub. Vətəndaşların xidmətdən razı qalmaq dərəcəsi 99 faizdən çoxdur. Bu, olduqca yüksək göstərici - ideal səviyyədir, yaxud idealın reallığa çevrilməsidir.

Reallıq isə budur ki, İlham Əliyevin siyasəti vətəndaş məmnunluğunun artması ilə müşayiət olunur. Bu, dövlət başçısının “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır” tezisinin əyani-əməli ifadəsidir. Vətəndaş fərdi, cəmiyyət isə ictimai anlam daşıyır. Dolayısıyla, siyasətin mərkəzində dayanan vətəndaşın rifahının yüksəldilməsi, mənafeyinin təmin olunması milli dövlətçilik məsələsidir. Bu, bürokratik maneələri və stereotipləri də istisna edir, dövlət-vətəndaş ahəngdarlığını yaradır, dövlətçiliyin ictimai dayaqlarını möhkəmləndirir. Nəticə isə vətəndaş məmnunluğudur!

Bir neçə dövlət orqanının xidmətlərini vahid məkanda, əlaqələndirilmiş şəkildə vətəndaşlara təqdim edən ”ASAN xidmət”-in yaradılması ilə dövlət idarəetmə sistemində yeni prinsipin - ”rəqabət” prinsipinin tətbiqinə başlandı, vəzifəli şəxslə vətəndaş arasındakı münasibətlərdə keyfiyyətcə yeni müstəviyə keçid başlandı. Dövlət orqanlarının yeni fəaliyyət üslübü, səmərəli xidmətin zəruri şərtləri formalaşdırıldı, vətəndaş məmnunluğu mühüm qiymətləndirmə mexanizmi kimi qəbul olundu.



*Ceyhun İsgəndərov,*
*Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri*

İdarəetmədə rəqabət dövlət orqanları arasında fəaliyyətin səmərəsinin, əmək məhsuldarlığının, şəffaflığın və çevikliyin artırılması vasitəsilə vətəndaş məmnunluğunu ən yüksək səviyyədə təmin etməyə yönəlir. İdarəetmədə rəqabət prinsipi aparılan institusional islahatlar nəticəsində vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyanın qarşısının alınması, səmərənin və çevikliyin artırılmasına yönələn mexanizmlərlə orqanlar arasında sağlam rəqabətin yaradılması vasitəsilə ümumilikdə idarəetmənin səmərəsini qaldırmağa, rifah səviyyəsinin yüksəldilməsinə xidmət edir. Belə ki, əgər eyni xidmətləri göstərmək hüququna bir-neçə dövlət orqanı eyni zamanda malik olarsa, dövlət orqanları arasında sağlam rəqabət mühiti yaranar ki, bu da korrupsiya hallarının qarşısını almaqla yanaşı, onların fəaliyyətində çevikliyin, şəffaflığın təmin olunmasının təzahürü kimi vətəndaş məmnunluğunun səviyyəsinin yüksəldilməsinə və büdcə vəsaitlərinə qənaət olunmasına zəmin ola bilər.

Səmərəli idarəetmə üçün sağlam rəqabət mühüm şərtdir. Əgər vətəndaş ona xidmət göstərən dövlət qurumunu seçmək imkanına malik olarsa təbii ki, məmnun qaldığı qurumu seçəcəkdir. Onun məmnunluğuna təsir edən faktorlar isə çox genişdir. Əvvəla, təbii olaraq artan tələbatların ödənilməsi forması və müddəti, xidmət prosesinin şəffaflığı və çevikliyi, tətbiq olunan texnologiyalar və ən əsası isə insan faktoru.

Azərbaycan innovativ idarəetmə vasitəsilə inklüziv, səmərəli və İKT əsaslı dövlət xidməti sistemi yaradıb. Bu xidmətlərin göstərilməsi sayəsində dövlət qulluqçuları ilə vətəndaşlar arasındakı məsafə qısaldılıb, ünsiyyət şəffaflaşdırılıb. Azərbaycan brendi kimi dünyaya səs salan ”ASAN xidmət”, ABAD, DOST kimi layihələr idarəetmə sistemində təkmilləşmənin, şəffaflığın qorunmasının aydın mənzərəsini yaradır.

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil, maddi nemətlərin ədalətli bölgüsünü təmin etmək, daxili siyasətin sosialyönümlülüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını daim yaxşılaşdırmaqdan ibarətdir. İnkişaf etmiş, yaxud inkişaf etməkdə olan dövlətlərin bir çoxu sosial təminatın yüksək pilləsi kimi sosial rifah dövləti qurmağı qarşısına məqsəd qoymuş, öz konstitusiyalarında, qanunlarında təsbit etmişdir.

Azərbaycan da güclü iqtisadi inkişafa əsaslanan sosial dövlət modelini prioritet seçib. Bu, dəfələrlə Prezident İlham Əliyevin nitqlərində də vurğulanıb, hakimiyyət komandasının açıqlamalarında da öz əksini tapıb.

Ölkəmizin qısa zaman kəsiyində sosial dövlət quruculuğu sahəsində əldə etdiyi təcrübə oxşar inkişaf yolu seçmiş başqa ölkələr üçün də model rolunda çıxış edir. Bu, heç də gəlişigözəl sözlər kimi qəbul edilməməlidir, çünki Azərbaycanın unikal sosial dövlət modeli sahibkarlığın daha sürətli inkişafına xidmət edir, yeni mülkiyyət formalarının yaranmasına istiqamətlənmiş kompleks tədbirlər əhalinin sosial baxımdan həssas təbəqəsinin mənafelərini qoruyur. Bazar iqtisadiyyatının inkişafı üçün atılan bütün addımlar da bu təbəqənin maraqları ilə uzlaşdırılır.

Yuxarıda qeyd edildiyi kimi, Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin, ilk növbədə, əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımlar atılmasında real ifadəsini tapır. Bu baxımdan, dövlət başçısının təsdiqlədiyi sosial islahat paketləri vətəndaş rifahı naminə atılan mühüm yeni addım oldu.

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu bildirən Prezident İlham Əliyev demişdir: “Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir”.

Vətəndaşların rifahının davamlı şəkildə artırılması, əhalinin həssas təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi müstəvisində Prezident İlham Əliyevin imzaladığı növbəti fərman və sərəncamlar bu yolda aparılan ardıcıl sosial islahatların növbəti mərhələsinin vacib məqamları kimi tarixə düşdü. Belə ki, ardıcıl qəbul olunan sosial paketlər vətəndaşların daim dövlətin qayğısı ilə əhatə edildiyinin sübutudur.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasət nəticəsində ölkəmiz dünya miqyasında sürətli inkişafı və sabitliyi ilə yanaşı, özünü sosial dövlət kimi təsdiq edib. Bütün bunlar bir daha onu göstərir ki, vətəndaşlarımızın sosial rifahının yaxşılaşdırılması hər zaman dövlətin diqqət mərkəzindədir.

### Vətəndaş məmnunluğu və iştirakçılıq səviyyəsinin təmin olunması Xızı rayonunda uğurla həyata keçirilir

Digər bölgələrdə olduğu kimi Xızı rayonunda da vətəndaş məmnunluğunun təmin edlməsi istiqamətində müəyyən addımlar atılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s nömrəli Sərəncamına uyğun olaraq Xızı Rayon İcra Hakimiyyətinin sifarişi əsasında Xızı şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 16 mənzilli yaşayış evi inşa edilmişdir.

Rayon ərazisində son illər vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə mövcud olan çox mənzilli yaşayış binalarının dam örtüklərinin yenilənməsi, həmçinin binaların giriş hissələrinin əsaslı təmir edilməsi işləri aparılmışdır. Bundan əlavə, küçələrin işıqlandırılması, yaşıllıqların artırılması, suvarma arxlarının qazılması, avtomobil və piyada yollarının əsaslı və cari təmiri üzrə əsaslı işlər aparılır. Görülən işlər şəhər ərazisi ilə yanaşı kəndlərdə də davam etdirilir.

Vətəndaş amili Xızı rayonunda da hər zaman əsas götürülür. Şəhər və kəndlərdə sakinlərlə keçirilən görüşlər zamanı səslənən müraciətlərə operativ şəkildə baxılması, vətəndaşların yaşadığı ünvandan asılı olmayaraq, istəyinə əsasən yerində baxılması, qaldırılan məsələlərin həlli istiqamətində yerindəcə tapşırıq verilməsi, vətəndaşların ərizə və şifahi müraciətlərinə əsasən keçirilən qəbullar vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edir. Vətəndaşlara göstərilən diqqət və qayğını hər an hiss edən hər bir rayon sakini dövlət qurumlarına ünvanlanmış müraciətə, yazılan məktuba, görüşdə səslənən fikrə həssaslıqla yanaşılacağını yaxşı bilir.

# Şəhid ailələri, müharibə əlilləri və digər sosial qayğıya ehtiyacı olan şəxslərə bayram sovqatları paylanılıb

**Xızı Rayon İcra Hakimiyyəti şəhid ailələrini, müharibə əlillərini, aztəminatlı ailələri, veteranları və digər sosial qayğıya ehtiyacı olan şəxsləri daim diqqət mərkəzində saxlayır, onlarla mütəmadi olaraq görüşlər təşkil edilir, mənəvi və maddi dəstək göstərilir.**

Belə qayğı dolu görüşlərdən biri də dekabrın 28-də keçirilib. Xızı RİHBA-nın əməkdaşları şəhid ailələrinə, müharibə əlillərinə, aztəminatlı ailələrə, veteranlara və digər sosial qayğıya ehtiyacı olan şəxslərə baş çəkərək, onlara Yeni - 2024-cü ilin gəlişi münasibətilə bayram sovqatları paylayıblar.

***"Xızı" R.M.***








# Narkomanlıqla mübarizənin əsas məqsədi sağlam mühit və sağlam gələcəkdir

**Narkomanlıq narkotik zəhərlərdən psixi asılılıq yaradan xəstəlikdir. Bu xəstəliyə tutulmuş şəxslər özlərini tamamilə cəmiyyətdən təcrid edirlər. Bunun növbəti fəsadlarını artıq geniş şərh etməyə ehtiyac yoxdur.**

Narkomanlıq narkotiklərin qanunsuz dövriyyəsinin coğrafiyası kimi sərhəd tanımır. Bu dəhşətli xəstəlik dinindən, dilindən, irqindən, sosial vəziyyətindən və s. asılı olmayaraq, hamı üçün eyni dərəcədə təhlükəlidir. O, cinayətkarlığı, zorakılığı və korrupsiyanı yaradır, QİÇS-in sürətlə artmasına təkan verir, sosial-iqtisadi inkişafı ləngidir, ailələrdə problemlərin yaşanmasına səbəb olur. Bu böyük bəla ilə hər bir qurum öz sahəsində bütün vasitələrdən istifadə etməklə mübarizə aparmalıdır. İstər maarifləndirmə, istərsə də inzibati qaydada mütəmadi tədbirlər görülməlidir. Çünki bu ağır xəstəlik cəmiyyətin məhvinə yönəlmişdir.

Əvvəldə də qeyd etdiyimiz kimi, bu bəlaya qarşı mübarizə birgə səylərin göstərilməsini tələb etdiyindən narkomaniya ilə bağlı problemləri dünya ictimaiyyətinin diqqətində saxlamaq məqsədilə BMT iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Günü elan edib. Dövlətlər insanları ölümə aparan bu bəlaya istər fərdi, istərsə də beynəlxalq əməkdaşlıq çərçivəsində mübarizə aparsalar da, dünya üzrə narkomaniyaya düçar olanların sayı ilbəil artmaqdadır.

Ölkəmizdə ilk dəfə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri Ümummilli Lider Heydər Əliyevin 1996-cı il 26 avqust tarixli Fərmanında öz əksini tapıb. Bu Fərmanda ölkədə sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması, narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmiş, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində dövlət siyasətinin strateji istiqamətləri dəqiq göstərilmişdir. Həmin Fərman əsasında 2000-ci ilə qədərki dövr üçün narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlandı, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradıldı, 18 iyun 1999-cu ildə Milli Məclis tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Qanun qəbul olundu.

Ulu Öndər Heydər Əliyevin siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin narkomaniyaya qarşı mübarizə tədbirlərinin davamlılığını təmin etmək üçün təsdiqlədiyi dövlət proqramları bu sahədə mühüm əhəmiyyət kəsb edir. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci illər)", eyni zamanda, bu sənədin davamı olaraq "2013-2018-ci illər üçün narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi istiqamətində ciddi səylər göstərildi və əldə olunan nəticələr növbəti sənədin qəbulunu zərurətə çevirdi. Belə ki, dövlət başçısı İlham Əliyevin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsdiqlənən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda qeyd edilir ki, aparılan islahatlar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlıq problemlərinin həlli üçün cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, beynəlxalq əlaqələrin genişləndirilməsini və kompleks mübarizəni zəruri etmişdir. Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Həmin problemin vurduğu ziyanın həcmi praktiki olaraq çox böyükdür və həm narkotik istifadəçisinin şəxsiyyətinin deqradasiyasına, həm də müxtəlif cinayətlər törədilməsinə, cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Eyni zamanda, cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi və digər genişmiqyaslı məsələlərdən ibarətdir.

Qeyd olunduğu kimi, narkomaniya ilə mübarizədə ən effektiv vasitələrdən biri maarifləndirmə tədbirlərinin həyata keçirilməsidir. Bu məqsədlə respublikamızın orta ümumtəhsil məktəblərində və ali təhsil ocaqlarında mütəmadi maarifləndirmə tədbirləri təşkil edilir.

"Narkomanlıq əsrimizin bəlasıdır", "Gənclər narkotikə yox deyir!"



*Kənan Əlizadə,*
*Xızı Rayon Prokurorluğunun*
*müstəntiqi, II dərəcəli hüquqşünas*

və s. kimi mövzular gənclərimizin sağlamlığının prioritetliyini özündə ehtiva edir. Təbliğat formalarından biri də mövzuya dair videoçarxların təqdimatıdır.

Təbliğat işində kiçik dövlət kimi dəyərləndirilən ailələrin də rolunu xüsusi qeyd etməliyik. Valideynlər bu bəlanın fəsadlarını uşaqlara çatdırmalı, ətraflarında belə gənclər varsa, onların təsir dairələrinə düşməməklə yanaşı, sağlam həyata qayıtmalarına dəstək olmalıdırlar. Bu gün valideynlərin necə davranması və uşaqları üçün hansı təsirə malik olması, sabah həmin uşaqların gələcəyi üçün əsasdır. Demək, gələcəyimiz öz əllərimizdədir. Gələcəyimizə bu gündən sahib çıxmağa başlayaq və narkomaniyaya birlikdə yox deyək!

Xızı Rayon İcra Hakimiyyətinin dəstəyilə rayon ərazisində narkomanlığın cəmiyyətə zərərinə dair keçirilən silsilə tədbirlərdə də əsas məqsəd maarifləndirmə işinin səviyyəsini yüksəltməkdir. Bu kimi tədbirlərin təşkilində Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı rayon nümayəndəliyinin, Abşeron-Xızı Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin, Xızı Rayon Polis Şöbəsinin, Abşeron-Xızı Regional Təhsil İdarəsinin rolunu xüsusi qeyd etmək lazımdır. Məktəblilər və yeniyetmələr arasında cinayətkarlığın, mənfi meyilli amillərin qarşısını almaq məqsədilə ümumtəhsil məktəblərində təşkil olunan tədbirlərdə, dəyirmi masalarda narkomaniyanın bəşəriyyət üçün böyük faciə olduğunu özündə əks etdirən mövzular ətrafında geniş fikir mübadiləsi aparılır, tədris ocaqlarında inşa yazı və rəsm müsabiqələri təşkil olunur, gənclərin bu təhlükəli cinayətlə bağlı fikir və mülahizələri öyrənilir.

Xızı rayonunda dövlət başçısı cənab İlham Əliyevin təsdiqlədiyi "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi istiqamətində ciddi səylər göstərir və atılan addımlar davamlı xarakter daşıyır.

Bu baxımdan deyə bilərik ki, narkomaniyaya qarşı mübarizəni gücləndirməklə gələcəyimizi, sağlamlığımızı qoruyur, dövlətçiliyimizi daha da möhkəmləndirmiş oluruq. Azərbaycanın gələcəyi kimi dəyərləndirilən gənclərin sağlamlığının təminatı daim diqqətdə saxlanılan məsələdir. Dövlət başçısı cənab İlham Əliyevin Gənclər Forumunda söylədiyi "Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda, Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik" fikirləri Azərbaycan gəncliyinə böyük inamın, etimadın təsdiqidir.

# Xızıda bayram şənliyi keçirilib








31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni - 2024cü ilin gəlişi münasibətilə Xızı şəhərində geniştərkibli bayram tədbiri keçirildi. Dekabrın 30-da Heydər Əliyev Mərkəzinin qarşısında təşkil olunmuş möhtəşəm, rəngarəng bayram konsertinə Xızı Rayon İcra Hakimiyyətinin, YAP Xızı rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, digər idarə, təşkilat və müəssisələrin rəsmi nümayəndələri və əməkdaşları, eləcə də mədəniyyət, təhsil, səhiyyə işçiləri, şəhid ailələri, müharibə veteranları, qazilər, ziyalılar, ağsaqqallar, gənclər, məktəblilər, körpələr toplaşmışdılar.

Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin təşkilatçılığı ilə ərsəyə gələn konsert proqramı alqışlarla qarşılandı, zövqləri oxşadı, bayram əhval-ruhiyyəsini daha da coşdurdu.

İncəsənət ustalarının ifasında bir-birindən şux, oynaq mahnı və rəqslər, məna dolu ədəbi-bədii kompozisiyalar, eləcə də Şaxta baba və Qar qızın iştirakı ilə nümayiş olunan səhnələr rayon sakinlərinin və qonaqların ürəyincə oldu. Hamı bayram tədbirindən xoş təəssüratlarla ayrıldı.

***"XIZI" R.M.***
***30 dekabr 2023-cü il***

# Yeni iliniz mübarək!

Xızı rayon ictimaiyyəti 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni - 2024-cü ilin gəlişi münasibətilə Azərbaycan xalqını təbrik edir, xoşbəxt, dinc və firavan həyat tərzi, sevinc və səadət dolu günlər, sülhün hökmranlıq etdiyi nurlu gələcək, yeni-yeni uğur və nailiyyətlər, möhtəşəm zəfərlər arzulayır.



# Azərbaycanda payızlıq əkin sahələrinin sığortalanma müddəti yanvarın 15-dək uzadılıb

**Aqrar Sığorta Fondu elan edir ki, əkin sahələrinin sığortası ilə bağlı müraciətlərin emalı müddəti 15 yanvar 2024-cü il tarixinədək davam edəcək.**



Əkin sahələrini bəyan edən fermerlərə həmin müddətə qədər sığorta ilə bağlı SMS bildirişlərinin göndərilməsi təmin ediləcək və onlar öz əkinlərini bu tarixə qədər sığorta edə biləcəklər.

Fond bildirir ki, 2024-cü il 15 yanvar tarixinədək göndərilən SMS-lər üzrə 5 iş günü ərzində ödənişlərin edilməsi mümkün olacaq.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında" 1 sentyabr 2021-ci il tarixli Fərmanına əsasən, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rola malik olan əkin sahələrinə əkin subsidiyaları aqrar sığorta olunmaqla verilir.

Aqrar Subsidiya Şurası tərəfindən müəyyən edilən siyahıya əsasən buğda, arpa, çəltik, çay, limon, fındıq və qarğıdalı bitkiləri üzrə əkin subsidiyaları aqrar sığorta olunmaqla ödənilir. Fermerlərə dəstək məqsədilə sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir.

Aqrar Sığorta Fondunun göstərdiyi xidmət və sığorta məhsulları, eləcə də sığorta tarifləri barədə ətraflı məlumatı Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsindən və sosial media hesablarından mümkündür.

# "Xızı" qəzetinin oxucularının nəzərinə!

Xızı Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan "Xızı" qəzetinə 2024-cü il üçün abunə yazılışı davam edir:

1 illik abunə qiyməti 12 manatdır.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(050) 547-65-39; (050) 965-88-89;**
**Whatsapp: (070) 831-95-96**

Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*



*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h:*
*33080019442400230124*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 531*

*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*